# "Azərbaycan Qran-prisinin qadın marşalları idman dünyası üçün yeni ilham mənbəyi olacaq"



"Formula-1" Azərbaycan Qran-prisi-2024 qadınların fəal rolunu vurğulamaq üçün bir ilkə imza ataraq Bakı Şəhər Halqasının həlledici, 16-cı döngəsində "Qadın Marşal Postu" yaradıb.

Artıq üçüncü ildir ki, tətbiq edilən bu təşəbbüslə qadın marşallar yarış əməliyyatlarında ön sıralarda olur ki, bu da yeniliyə və tədbirin əhəmiyyətli məqamına çevrilir.

Bakı Şəhər Halqası əməliyyat şirkətinin baş direktoru Maqsud Fərzullayev və Azərbaycanda səfərdə olan Beynəlxalq Avtomobil Federasiyasının (FIA) prezidenti Mohammed Ben Sulayem qadın marşallarla görüşüb. FIA prezidenti qadın marşalların fəaliyyətini belə dəyərləndirib: "Qürurverici haldır ki, Azərbaycan Avtomobil Federasiyası və Bakı Şəhər Halqası əməliyyat şirkəti qadınların idmandakı nüfuzunun artması üçün bu cür təşəbbüslə çıxış edib. Bərabərlik, müxtəliflik və inklüzivlik siyasəti FIA-nın başlıca qayəsi olmaqla qadınların idarəçilik mövqeyinin artmasına töhfə vermək vacib məqsədlərimizdəndir. Ümid edirəm Bakı yarışının qadın marşalları idman dünyası üçün yeni ilham mənbəyi olacaq".

Azərbaycan. - 2024.- 17 sentyabr (№202).- S.6.